# Ağdam şəhərinin 189,7 kilometrlik daxili yolları baş plana uyğun tikilir



## 6 tip en kəsiyi, yaşıllıq, piyada və velosiped zolaqları

**Qarabağ və Şərqi Zəngəzuru "dəmir yumruq"la işğaldan azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev zəfərimizdən ötən üç il beş ay müddətində bu ərazilərdə misli görünməyən quruculuq işlərini həyata keçirməkdədir. Erməni vandalizminin qurbanına çevrilmiş şəhər və kəndlərin yenidən, daha müasir formada qurulması, tamamilə dağıdılmış infrastrukturun bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışının təmin edilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir.**







Bu ərazilərdə həyata keçirilən mühüm layihələrdən biri də yol-nəqliyyat infrastrukturunun tamamilə yenidən qurulmasıdır. Hər iki iqtisadi rayonda tikinti-quruculuq işləri ilə paralel olaraq yolların da yenidən qurulması, körpü və tunellərin tikintisi həyata keçirilir.

Prezident İlham Əliyev işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərləri çərçivəsində yeni yolların açılışlarını edir və tikinti işlərinin sürətlə aparılması ilə bağlı ciddi tapşırıqlarını verir. Bölgədə 2026-cı ilədək 2300 kilometrə yaxın 20 avtomobil yol layihəsinin icrası nəzərdə tutulur. Tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulub istifadəyə veriləcək.

Dünən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Ağdam şəhərinin daxili yollarının tikintisi barədə yeni məlumat yayıb. Qeyd edilir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təsdiq edilmiş Ağdam şəhərinin baş planına əsasən şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edəcək.

Şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Ağdam şəhərinin daxili yollarının 6 tip en kəsiyinə uyğun tikilməsi nəzərdə tutulub. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq, hərəkət zolaqlarının sayı 2-8 ədəd, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 1,5 metr, piyada zolağının eni isə 4-6 metr təşkil edir.

Layihə üzrə magistral şəhər yollarının uzunluğu 17,5 kilometrdir. Eni 55-60 metr təşkil edəcək bu yollar 6-8 hərəkət zolağından ibarət olacaq. Ümumşəhər əhəmiyyətli yolların uzunluğu 50, yerli əhəmiyyətli yolların ümumi uzunluğu isə 122,2 kilometr təşkil edəcək.

Qeyd edək ki, hazırda tikinti işləri birinci mərhələdə uzunluğu 58,7 kilometr təşkil edən hissə üzrə aparılır. Bu çərçivədə hazırda sözügedən hissədə tikinti sahəsinin təmizlənməsi, bitki qatının çıxarılması, qazma, torpaq yatağı və kommunikasiya xətlərinin tikintisi işləri həyata keçirilir.

Qeyd edilən hissə üzrə fiziki tərəqqi ümumilikdə 20 faiz təşkil edir. Tikinti-bərpa işləri "İnşaat Norma və Qaydaları"na uyğun, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin şəxsi nəzarəti altında həyata keçirilir.



"Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq Ağdam şəhərinin daxili yollarının tikintisinin 2026-cı ildə başa çatdırılması nəzərdə tutulur.

Ümumiyyətlə, azadlığa qovuşmuş ərazilərimizdə 2026-cı ilədək 2300 kilometrə yaxın 20 avtomobil yolu layihəsinin icrası planlaşdırılır.

Böyük qayıdış proqramının birinci mərhələsi 2026-cı ilin sonunda başa çatdırılacaq və o vaxt 140 min keçmiş məcburi köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Bununla paralel olaraq, bütün sosial infrastruktur inşa edilir, xəstəxanalar, məktəblər, idman və xidmət obyektləri, yollar, 130-dan çox tunel və körpü (40 tunel, 90 körpü) inşa edilir. Tezliklə bu tikililər, möhtəşəm yollar Qarabağa və Şərqi Zəngəzura yeni həyat gətirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***





Azərbaycan. - 2024.- 17 may, № 102.- S.9.